Aprelin 16-da Bakının Səbail rayonunun 20-ci sahəsində yeni inşa olunmuş 332 saylı körpələr evi-uşaq bağçasının açılış mərasimi keçirilib.

Mərasimdə təhsil naziri Misir Mərdanov, Səbail rayonu İcra Hakimiyyətinin başçısı Sahib Ələkbərov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Nailə Rzaquliyeva və digər qonaqlar iştirak ediblər.

Təhsil naziri Misir Mərdanov bağçanın rəmzi açılışını bildirən qırmızı lenti kəsdikdən sonra məktəbəqədər təhsil müəssisəsi ilə yaxından tanış olub. Nazir yeni tikilib istifadəyə verilmiş məktəbəqədər təhsil müəsissəsində uşaqlar üçün yaradılan şəraitindən razı qaldığını vurğulayıb.

Misir Mərdanov ölkə başçısı cənab İlham Əliyevin təhsilə göstərdiyi diqqət və qayğıdan danışıb, habelə məktəbəqədər təhsil müəssisəsinin tikintisini bu qayğının təzahürü kimi qiymətləndirib.

Tədbirdə Səbail rayon İcra Hakimiyyətinin başçısı Sahib Ələkbərov belə bir gözəl bağçanın tikilib istifadəyə verilməsini bu ərazidə yaşayan aztəminatlı ailələrin uşaqları üçün gözəl bir hədiyyə olduğunu bildirib.